# Qəbələdə Xocalı soyqırımı qurbanlarının xatirəsi yad olunub

**Xocalıda dinc əhalinin qətlə yetirilməsi Ermənistanın dövlət səviyyəsində uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi etnik nifrət, irqi ayrı-seçkilik və sistematik zorakılıq siyasətinin tərkib hissəsi olub.**

AZƏRTAC xəbər verir ki, bu fikir Xocalı faciəsinin otuz ikinci ildönümü ilə əlaqədar Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda keçirilən anım tədbirində səsləndirilib.

Qəbələ Arxeoloji Mərkəzinin akt zalında keçirilən tədbirin əvvəlində Xocalı qətliamı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra qoruğun əməkdaşı Şamama Cəbrayılova XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı haqqında ətraflı məlumat verib.

Tədbirdə çıxış edən Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun direktoru Zahir Kərimov erməni millətçilərinin xalqımıza qarşı zaman-zaman həyata keçirdikləri soyqırımı siyasətindən bəhs edib, Xocalı faciəsinin acı nəticələrini konkret faktlarla diqqətə çatdırıb. Xocalı soyqırımına yalnız Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və diqqəti sayəsində hüquqi-siyasi qiymət verildiyini vurğulayan qoruğun direktoru bu gün soyqırımı ilə bağlı həqiqətlərin beynəlxalq aləmdə təbliği və günahkarların öz cəzasını alması istiqamətində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Qeyd olunub ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində məqsədyönlü işlər aparılır.

Çıxışlardan sonra məktəblilər Vətənə, Xocalıya, şəhidlərə, doğma torpağa həsr olunan şeirlər söyləyiblər.

Azərbaycan.- 2024.- 25 fevral, № 43.- S.7.